pirdilər. Beləcə gecədən keçənə qədər fasiləsiz döşəndilər süfrədəki Allahın verdiklərinə. Siçovul, qarışqa və hörümçəklərdənsə səs çıxmadı ki, çıxmadı. Baxmayaraq ki, iki günə yaxındı ac-yalavac səbirsizliklə Cahangirin yolunu gözləmişdilər. Onun arabir küçədə gecələməyi vardı. Mənzilinin yolunu tapmayanda elə olduğu yerdəcə birtəhər lövbər salıb qalardı.

Gecənin bir aləmində qonaq tikəsinin bir parası ağzında, bir parası da əlindəcə yuxuya getdi. Müvazinətini güclə tarazlayan Cahangir onu sürüyüb öz yatağına saldı. O, Yeni ilin ləzzətini hələ tam çıxarmamışdı. Özünə yüz də süzüb, stulu bir az da masaya yaxınlaşdırdı. İllər onu sınağa çəksə də, hələ də canı suluydu. Cavanlıqda əməlli-başlı idmanla məşğul olmuşdu. Cahangirin kefi kökdü, uzun illərdən bəri o da kimsəyə ilk dəfə yardımçı ola bilmişdi. Gözlərinin yaşını tuta bilmədi. Sanki məstlikdən bir az ayıldı. O isə bunu qətiyyən arzulamırdı. Yenə güc verdi şəraba. Azca keçmiş başını stola dayayıb dərin mürgüyə daldı. Hər ikisi qış yuxusuna getmişdi.

Lül dəm olduğundan bir də növbəti gün axşamçağı özünə gəldi. Zoqquldayan başını qolları arasına aldı. Masanın üstündəki yarımçıq qalan yeməklərin və çörəyin üzərinə səliqəylə olmasa da, hər halda, dəsmal salınmışdı. Ağlına ilk gələn bu oldu ki, yəqin, bu, qonağının işidi. Yatağına sarı nəzər saldı. Yox, qonağı necə uzatmışdısa, elə, o cür də cansız vəziyyətdəydi. Onda tərpəniş yoxdu. Fəhmiylə anladı ki, bu süfrə məsələsi yüz faiz siçovulun işidir. İndiyəcən bir neçə dəfə barmağını dişləyərək onun belə "xoş məramı"nın canlı şahidi olmuşdu.

Özünü məcbur eləyib ayağa qalxmağa cəhd göstərdi. Buna çətinliklə nail oldu. Üstünü örtmək üçün qonağa yaxınlaşanda onu elə ilk baxışdaca dəhşət bürüdü, gözləri kəlləsinə çıxdı. Kefliliyindən əsər-əlamət qalmadı. Qarşısındakı tifilin dodaqları parça-parça idi, dördbir tərəfə laxta-laxta qan səpələnmişdi. Allahın yazıq bəndəsinin qulaqlarının yumşaq hissəsi də yerində yoxdu. Anladı, bu, siçovulların əməlidi. Ay aman, bu yetimin qulaq seyvanlarından, ağız boşluğundan, burun pərlərindən qarışqa seli qaynayırdı. Həmin səfilsərgərdan kəsə hörümçəklər də aman verməmişdilər. Əllərindəki çatlaq yaralarındakı qana daraşmışdılar. Qonaq yamangünlükdü.

Cahangirin dünən axşamüstü bu mənzilin "sakinlər"inə ayırdığı paya isə əl dəyilməmişdi. Deyəsən, onu ehtiyata saxlamışdılar. Ya da ki, belə çimyağ daman nəhəng tikəni qoyub, kim, o adicə təamlara tamah salardı?!. Qanrılıb geriyə baxanda siçovul topası diqqətini çəkdi. Kürəyini divara dirəyib təəccüblə xaşal qarnını qaşıyan erkək siçovul ona saymazyana nəzər saldı. Gözlərindən qığılcım saçılırdı. Külfəti də ətrafında səvələnmişdi. Hələ də zəkası iti işlədiyindən fəhmi ilə tutdu; bu mənzilin "sakinləri" artıq insan qanına susamışdılar. Yəqin ki, bundan sonra həmin tamlı nəsnəyə yerikləyəcəkdilər də. Onu veclərinə alacaq halda deyildilər. Ötən müddətdə qonağı yağlı tikə bilib, necə lazımdır, yararlanmışdılar.

Bu məqamda Cahangir köhnə dostlarının qoparağını götürərək qırıb-çatmağa, onları evlə birlikdə külə döndərməyə hazırdı. Di gəl, yerindən bircə addım belə ata bilmədi. Kin-küdurəti soyumasa da, onlara heç cür qıymadı. Ağrıdan ilan kimi qıvrılan qonağın yerindən qalxmağa cəhd göstərdiyini sezdi. Amma, nə faydası, bu mənasızdı. O, tamam heysizdi.

Cahangirin gücü yalnız qapını aralayaraq haray-həşir salıb, qonşuları təcili yardım çağırmağa səsləməyə yetdi. Özü isə dabanına tüpürərək, ildırım sürətilə birdəfəlik uzaqlara yol aldı. Son pənahını - dədə-baba ocağının nişanəsi olan birotaqlı mənzilini də nadürüstlərin ixtiyarına buraxmaqdan başqa çarə tapmadı. Onun sorağı bir daha oralardan gəlmədi.